# Muzeyin açılışı



**Açılış mərasimində çıxış edən şəhər İcra Hakimiyyətinin başçısı Vaqif Əliyev qonaqları salamladı və tədbir iştirakçılarını bu əlamətdar hadisə münasibətilə təbrik etdi. Muzeydə görülən işlər barədə ətraflı məlumat verən şəhər rəhbəri son illər ərzində Sumqayıtın mədəni həyatında bu kimi tədbirlərin həyata keçirilməsinin ənənə halını aldığını vurğuladı.**

Sumqayıt həyatının son illər mədəni hadisələrlə zəngin olduğunu bildirən V.Əliyev şəhərin mədəniyyət ocaqlarının maddi-texniki bazasının gücləndirildiyini iştirakçıların nəzərinə çatdırdı: "Sumqayıtda yerləşən mədəniyyət sarayları, mərkəzləşdirilmiş kitabxana və musiqi məktəbləri qısa zamanda təmir olunub. Bundan sonra da mədəniyyət obyektlərinin təmir-bərpa işləri davam etdiriləcəkdir. Bütün bu işlərdə Mədəniyyət və Turizm Nazirliyinin yaxından köməyi olub. Sumqayıt Tarix Muzeyinin açılışı da buna bariz misaldır".

Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev Sumqayıt sakinlərini təbrik edərək Tarix muzeyinin şəhərin mədəni həyatı üçün əhəmiyyətini vurğuladı.

Tarix muzeyinin açılışının Beynəlxalq Muzeylər Gününə təsadüf etməsinin xüsusilə əlamətdar olduğunu bildirən nazir bu hadisəni beynəlxalq bayrama bir hədiyyə kimi dəyərləndirdi: "Bu gün ölkəmizdə tarix-diyarşünaslıq muzeylərinin inkişafı göz qabağındadır. İnanıram ki, Sumqayıt Tarix Muzeyinin kollektivi başda Oliya İslamova olmaqla bu mədəniyyət ocağının fəaliyyətində əlindən gələni edəcəklər".

Ə.Qarayev qonaqların diqqətinə çatdırdı ki, ilk dəfə o, mədəniyyət naziri kimi Sumqayıta səfər edən zaman Oliya xanım muzeyin yenidən bərpa edilməsi təklifi ilə çıxış edib: "Sevinirəm ki, belə bir təşəbbüs eşitdim. Əslində biz bunu bütün regionlardan gözləyirik. Təşəbbüsün özü böyük məsuliyyət deməkdir. Mədəniyyət işçiləri ziyalı olaraq qərarları qabaqlayıb prosesə qoşulmalıdırlar. Yaşadığı regional mədəni inkişafının yollarını görməli və təkliflər verməlidirlər".

Sonra nazir Əbülfəs Qarayev tədbir iştirakçılarını muzeyə dəvət etdi. Nazir və tədbir iştirakçıları ikimərtəbəli binadan ibarət olan muzeyə baxış keçirərək təqdim olunan ekspozisiyalarla tanış oldular. Muzeyin direktoru Oliya İslamova qonaqlara ekspozisiyalar barədə ətraflı məlumat verdi. O bildirdi ki, 1967-ci ildə yaradılan Tarix Muzeyinin eksponatları və xronoloji ekspozisiyaları XX əsrin 30-cu illərindən başlayaraq bugünümüzə qədər olan dövrü əhatə edir.

**Muzeyin fondunda 15 mindən artıq eksponat mövcuddur. Burada böyük öndər Heydər Əliyevin Sumqayıtın tarixində olan rolu və şəhərin yubileyləri ilə bağlı stendlər var. Ekspozisiyalarla tanış olan nazir muzeyin konfrans zalına Mədəniyyət və Turizm Nazirliyi tərəfindən video-proyektor hədiyyə olunacağını bildirdi...**



